# ZAMANIN HÜDUDLARINI AŞAN SƏNƏTKAR

Görkəmli ədibimiz, Xalq yazıçısı Süleyman Rəhimov Azərbaycan epopeyasının yaranması və inkişafında xüsusi mövqeyi olan qüdrətli söz ustalarındandır. S.Rəhimov barədə söz açarkən onu Azərbaycan nəsrinin "uzaqvuran topu" adlandıran Xalq şairi Səməd Vurğun haqlı olaraq qeyd edirdi ki, geniş müşahidə qabiliyyətinə, zəngin təcrübəyə, epik yazı manerasına malik olan böyük sənətkarın əsərlərində kənd həyatının təsviri əsas mövzulardan biri kimi geniş yer tutur. O, realist bir yazıçı kimi kənddə gedən sinfi mübarizəni, azadlıq mübarizəsini inandırıcı şəkildə təsvir edib. "Şamo", "Ata və oğul", "Aynalı" əsərlərində, "Ötən günlər dəftərindən" adlı hekayələr kitabında kəndin təsviri geniş şəkildə qələmə alınıb. "Şamo" əsərindəki Şehli kəndinin təsvirində varlılarla kasıblar arasında ziddiyyət aydın görünür. Bu kənddə yaşayan varlılar dəbdəbəli həyat sürürlər, onlar ehtiyacın nə olduğunu bilmədən yaşayırlar. Başqa bir tərəfdə isə yoxsulların qaranlıq daxmaları öz varlığından utanırmış kimi dərələrin küncünə, təpələrin yamacına sığınıb. Bu yastı-yapalaq daxmalarda yaşayan insanlar bir parça çörəyə möhtac olurlar, onlar etiraz səslərini ucaltdıqda, söyülür, döyülür, təhqir edilirdilər. Bu baxımdan müəllifin "Üzsüz qonaq", "Muzdur əhvalatı", "Mozalan kəndi", "Xoruzlu dəsmal", "Su ərizəsi" kimi hekayələri dəyərli nümunələrdir.

Uğrunda mübarizə aparılan yeni kəndin gözəl və firavan həyatı inqilabdan əvvəlki kənddən fərqləndiyi kimi, onun insanları da hüquqsuz kəndlilərdən fərqlənirlər. Onlar cəmiyyət üçün insanların rifahı naminə xeyirxah işlərlə məşğul olurlar. Bu baxımdan ədibin "Yanan buludlar" adlı hekayə-oçerki xüsusilə diqqəti cəlb edir. Hekayənin qəhrəmanı Nəbi kişi inkişafı düzgün başa düşən bir surət kimi verilib. O istəyir ki, insanlar daha çox işlərə qadir olsun, məhsul bolluğu yaratmaq uğrunda mübarizənin ön sırasında getsinlər. Müasir kənd mövzusunda yazılmış "Ağbulaq dağlarında" romanında yeni həyat, yeni ictimai münasibətlər xüsusi yer tutur. Əsərin qəhrəmanı Şiraslan İkinci Dünya müharibəsi cəbhələrində həlak olmuş atası kimi xeyirxah işlər görmək, xalqa xidmət etmək arzusu ilə yaşayır. "Qardaş qəbri", "Mehman", "Ana abidəsi" və bu kimi başqa əsərlərində Süleyman Rəhimov kənd həyatından sonsuz bir məhəbbətlə söhbət açır. Süleyman Rəhimovun xalq həyatı ilə yaxından tanışlığı və yaratdığı obrazlar sözün həqiqi mənasında onun kənd həyatı ilə bağlılığından irəli gəlir. Onun əsərlərində xalq həyatını dərindən, istedadla, böyük yaradıcılıq əzmi ilə qələmə aldığını müşahidə edirik. Süleyman Rəhimov öz yaradıcılıq işini həmişə geniş ictimai fəaliyyətlə əlaqələndirmiş, bir yazıçı və vətəndaş kimi xalqımızın və partiyamızın qarşıya qoyduğu vəzifələri, sədaqətlə yerinə yetirmişdi. O hesab edirdi ki, "yazıçı harada, hansı şəraitdə olursa-olsun onun ürəyi yaradıcı sənətkar ürəyi olaraq çırpınmalıdır. Bu çırpıntı olaraq qalmamalı, ötüb keçməməlidir. O, zəhmətlə, qələmlə, kağızla birləşməli, yüksək bədii məhsulunu verməlidir!"

Görkəmli yazıçı sənətin və sənətkarın yaradıcısı olan xalqı tanımaq, xalqın qüdrətini, ləyaqətini dərk etmək, ona arxalanmaq kimi keyfiyyətləri əsərlərində, sadə insanların təsvirində uğurla göstərib. Müasir ədəbiyyatımızın şöhrətlənməsində, müxtəlif millətlərdən geniş oxucu kütləsi cəlb etməsində onun əsərlərinin təsiri çox güclü olub. Xalqımızın gözəl mənəvi keyfiyyətlərini, qəhrəmanlıq ənənələrini, igid babaların ağ günlər üçün fədakarlığını söz sənətində yaşatdığına, əbədiləşdirdiyinə görə Süleyman Rəhimov sevilərək oxunan yazıçılardan biri kimi daima ehtiramla xatırlanır.

Məşhur ədib E.Heminquey həqiqi yazıçını mənbəyi çox dərinliklərdə olan sərin sulu kəhrizə bənzədir. Əgər bu kəhriz mənşəyini başı qarlı uca dağların yeraltı laylarından alırsa, heç zaman bitib tükənmir, dayanmır, qurumur, daim axır, ana yurdun göllərinə, çəmənlərinə, ucsuz-bucaqsız

tarlalarına gözəllik və bərəkət çiləyir. Süleyman Rəhimov bitib tükənməyən kəhriz kimi milyonlarla insanların ürəklərinə əsərləri vasitəsi ilə sərin su çiləyir. Xalqımızın tarixinə şərəfli və ləyaqətli səhifələr yazan qəhrəman Həcər və Nəbinin əfsanəvi igidliyindən danışan "Qafqaz qartalı", müasir dövrümüzün mənəvi-əxlaqi keyfiyyətlərindən bəhs edən "Qoşqar qızı", C.Məmmədquluzadəyə həsr olunmuş "Uğundu" romanlarını ədib məhz bu ali niyyətlə yaratmışdı. Bu ilham bulağından məktəbdən, maarifdən bəhs edən "Ata və oğul", hüquq işçilərinin həyatından canlı lövhələr yaradan "Mehman" əsəri onun səmərəli yaradıcılıq axtarışlarının nəticəsi idi. Bu görkəmli realist sənətkarın əsərlərində xalqın tərəqqisinə maneçilik törədən qüvvələr, mənfi tiplər çox böyük ustalıqla qələmə alınmışdı. Ədib bədii yaradıcılığa başladığı ilk vaxtlardan bu məsələyə xüsusi əhəmiyyət vermiş, qabaqcıl cəmiyyətdə mütərəqqi qüvvələrin mənafeyinə xidmət edənlərlə daha çox maraqlanmışdı. Cəsarətlə demək olar ki, əsərdən-əsərə onun müsbət qəhrəmanları qüvvətlənib, canlılıq və gerçəklik kəsb edib.

İnsanlarımızın qəhrəmanlıqlarından, məhəbbətindən, dostluqlarından, vətənpərvərliklərindən bəhs edən ədib bu mövzularda "Mehman", "Medalyon", "Qardaş qəbri", "Torpağın səsi", "Gəlin qayası", "Güzgü göl", "Kəsilməyən kişnərti", "Məhtaban", "Bəhram və Zərəfşan" kimi mənalı, gözəl povestlər, həmçinin, "Pəri çınqılı", "Gülən balıq", "Gülsabah", "Su ərizəsi", "Minnətsiz çörək" kimi qiymətli hekayələr qələmə alıb. Heç də tam olmayan bu siyahıdan aydın görünür ki, yazıçının mövzu dairəsi son dərəcə geniş və rəngarəngdir. Xalqımızın tarixinin bir əsrdən artıq dövrünü əhatə edən Süleyman Rəhimov sözün həqiqi mənasında qüdrətli qələm sahibi, unudulmaz xarakterlər yaratmaq, xalq dilinə, ruhuna hakim olmaq, onun keçmişində işıqlı cəhətləri müasir baxışla süzgəcdən keçirib bugünün oxucusuna çatdırmaqda usta olan böyük sənətkardır. Öz yaradıcılıq üslubu və sənətkar qayəsi barədə ədib haqlı olaraq demişdi: "Mən hər dəfə əlimə qələm alanda elə bil silah götürüb səngərə girirəm. Ədəbiyyat ən böyük səngərdir. Əlbəttə, burada atəş açılmır, toplar, tanklar, təyyarələr vuruşmur, hisslər, fikirlər, düşüncələr vuruşur, dünya görüşləri çarpışır. Yazıçı öz əsərləri vasitəsi ilə oxucularının qəlbinin dərinliklərinə nüfuz edir. Onun öz sözləri ilə desək, həqiqi yazıçı bu mənada əlinə qələm alan gündən son nəfəsinə qədər səfərbər olmalıdır".

S.Rəhimov Azərbaycan Sovet Yazıçılar İttifaqına başçılıq edəndə də özünü müsəlləh əsgər kimi səngərdə hiss etmiş, qələmini - "süngüsünü" döyüşlərdən şərəflə çıxarmışdı.

Süleyman Rəhimovun yaratdığı surətlərin çoxu onunla bir cəmiyyətdə yaşayan, müxtəlif sahələrdə fəaliyyət göstərən insanlardı. Yazıçının istedadını, sənətkarlığını yüksək qiymətləndirən S.Vurğun bu barədə yazırdı: "Süleyman nadir simalardandır. O, çox cürətli adamdır. Məhz buna görə də mən ona bağlıyam. O, Azərbaycan ədəbiyyatının ağır artilleriyasıdır. Hər hansı bir sözü istədiyi şəkilə salmaq gücünə malikdir. Lakin onun qələmi nə qədər müti vəziyyətə düşsə də, əsas bir məqsədə, surətin daxili aləmini, psixologiyasını, ictimai-siyasi baxışlarını açmağa xidmət edir. Maraqlıdır ki, onun yaratdığı yüzlərlə surət danışıq tərzi, xarakteri, cəmiyyətdəki yeri, mövqeyi ilə seçilir, yadda qalır. Yazıçı bu müxtəlif xarakterli, müxtəlif səviyyəli surətləri bacarıqla bir sırada birləşdirir. Onun üslubunu surətlərin sayından və xarakterindən asılı olaraq çox səsli musiqi alətinə bənzətmək olar. Bu kimi məziyyətlər onu xalq ruhunun incəliklərinə, adət-ənənəsinə, dilinə bələd olan bir sənətkar kimi tanımaq imkanı verir. Yazıçının yaradıcılığında sağlam və sərt realizm, xalq müdrikliyi və yumoru üzvi surətdə birləşir, eyni zamanda bu birləşmədə xalq həyatının və insanların münasibətlərindəki təsvirin həyatiliyi dərin ictimai-tarixi ümumiləşdirmə yolu ilə göstərilir. Həmçinin, xalq arasındakı satirik nağılların süjet və surətlərin ədib tərəfindən məhəbbətlə işlənməsi yazıçının üslubunda və xarakterində öz əksini tapır".

Süleyman Rəhimov əlli ildən artıq həvəs və məhəbbətlə, enerjisini əsirgəmədən yazıb-yaratmış, zəhməti sayəsində necə möcüzələrə qadir olduğunu yazdığı əsərləri vasitəsilə sübut etmişdi. O, özünü Azərbaycan xalqının və ədəbiyyatının "əli qələm tutan fəhləsi" adlandırır və bununla fəxr edirdi.

Sənətdə müasirlik geniş anlayışdır. Onu ancaq günün hadisələrindən yazmaq mənasında başa düşmək birtərəfli olardı. Müasirlik ruhu mövzudan daha artıq, müəllifin qələmə aldığı hadisələrə münasibətindən, mövqeyindən asılıdır. Yazıçı orijinal istedad, daima axtaran böyük sənətkardır. Ədib haqqında yazan tənqidçilər onun qüdrətli söz ustası olduğunu dəfələrlə qeyd etmişlər. Onun əsərləri haqqında yazmış müəlliflərin siyahısı çox genişdir. Bu sırada Məmməd Arif, Məmməd Cəfər, Cəfər Xəndan, Ağamusa Axundov, Qulu Xəlilov, Məsud Əlioğlu, Pənah Xəlilov, Musa Adilov kimi tanınmış alimlər vardır. Səməd Vurğun, Mehdi Hüseyn, Mirzə İbrahimov, Mir Cəlal, Əli Vəliyev kimi görkəmli söz ustaları öz qələm yoldaşları haqqında yüksək fikirlər söyləmişlər. Sovet dövründə Y.Lebedinski, K.Simonov, K.Zelinski, Z.Kedrina, A.Adalis, G.Lomidze, N.Vorobeyeva, S.Xitarova və başqaları ədibin yaradıcılığı ilə yaxından maraqlanaraq əhəmiyyətli mülahizələr irəli sürüblər.

Xalq yazıçısı Süleyman Rəhimov böyük ictimai-siyasi və maarifçilik fəaliyyəti ilə ədəbi yaradıcılıq işini ustalıqla əlaqələndirib, Azərbaycan nəsrinin və pedaqoji fikrinin inkişafında mühüm mərhələ təşkil edən zəngin irs yaradıb. Qazandığı uğurlarla heç zaman kifayətlənməyən S.Rəhimov öz məqalələrinin birində yazır: "Sənətkar üçün daha mən zirvəyə çatdım" demək ən qorxulu və dəhşətli xəstəlikdir. Sənətkar özünə qarşı daima tələbkar olmalıdır".

Əsərlərində tariximizi yaşadan, ədəbiyyatımızı zənginləşdirən belə sənətkarlara ehtiyacımız çoxdur. Süleyman Rəhimovun yaradıcılığından, onun mənalı həyatından söz açmaq, yarım əsrdən artıq mürəkkəb bir dövrün mübarizələrlə dolu səhifələrini varaqlamaq deməkdir.

Əminik ki, ədibin sevə-sevə qələmə aldığı, miras qoyduğu əsərləri öz müasirliyini qoruyacaq, qiymətini itirməyəcək, nəsillər dəyişdikcə sevilərək oxunacaq.

**Ədalət RƏSULOVA**

**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnsitutunun əməkdaşı**

**525-ci qəzet .- 2022.- 16 iyul.- S.19.**